# GORANBOY: İQTİSADİ İNKİŞAF BÜTÜN SAHƏLƏRİN TƏRƏQQİSİNƏ STİMUL VERİR

**Bütün sahələrdə dahi şəxsiyyət, Türk dünyasının fenomeni Heydər Əliyevin düşünülmüş və uzaqgörən inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyev son illərdə kənd təsərrüfatının da davamlı inkişafına xüsusi diqqət ayırmışdır. Ölkədə müəyyənləşdirilmiş sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqaməti kimi iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmini, rəqabətqabiliyyətliliyin artırılması və bu sahəyə investisiya qoyuluşunun sürətləndirilməsi əsas hədəflərdəndir. Qlobal böhran şəraitində daxili istehsalın təşviq edilməsi, sahibkarlara kreditlərin verilməsi, özəl sektorun maraqlarının müdafiəsi respublikanın neft amilindən asılılığını əhəmiyyətli dərəcədə azaltmışdır.**



Son illər qəbul edilmiş Dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər regionlarda sahibkarlığın inkişafını sürətləndirmiş, oradakı əmək ehtiyatlarından, təbii iqtisadi resurslardan kifayət qədər səmərəli istifadəyə imkan vermiş, iqtisadiyyatın tarazlı və davamlı inkişafına, infrastrukturun müasirləşdirilməsinə, əhalinin məşğulluğunun artırılmasına, yoxsulluğun səviyyəsinin azaldılmasına etibarlı zəmin yaratmışdır. Azərbaycanın hər bir guşəsində aparılan abadlıq, tərəqqi və yüksəliş, Qədim Oğuz yurdu Goranboy şəhərində daha qabarıq görünür. Xidmət və infrastruktur sahələrinin yeniləşməsi, müasir dövrün tələblərinə uyğunlaşdırılması hədəf hesab olunmuş, uğurla icra olunmaqdadır. Rayonda həyata keçirilmiş çoxsahəli tədbirlər sistemi həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinə görə miqyaslı, konkret və ünvanlı olması ilə diqqəti çəkir. Mövcud sənaye müəssisələrində istehsal gücünün artırılması, yeni müəssisələrin işə salınması şəhərdə iqtisadiyyatın yüksəlməsinə güclü təkan vermişdir, bu sıçrayışlı inkişaf rayonun simasını tam dəyişmişdir. Rayonda aparılan genişmiqyaslı tikinti, abadlıq və quruculuq işləri, sözün əsl mənasında təqdirəlayiqdir. Sahibkarlıq inkişaf etmiş, yeni müəssisələr yaradılmış, məktəblər, bağçalar, müalicə ocaqları tikilmiş, əsaslı surətdə təmir olunmuş, yeni yollar çəkilmişdir. Hər yerdə yüksək dizaynla inşa edilmiş binalar, gözoxşayan park və istirahət mərkəzləri, qədim ornament elementləri ilə işlənmiş sosial və ticarət obyektlər bir-birini tamamlayır və şəhərə xüsusi gözəllik verir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Goranboy rayonuna daim diqqət və qayğısı goranboyluların qurub-yaratmaq əzmini daha gücləndirmişdir.



## TİKİNTİ-QURAŞDIRMA, ABADLIQ SAHƏSİNDƏ UĞURLU ADDIMLAR ATILMIŞDIR

Rayonda abadlıq-quruculuq işlərinin miqyası çox genişdir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında Goranboyla bağlı nəzərdə tutulan tədbirlərin uğurlu icrası rayon əhalisinin sosial rifahının yaxşılaşmasına da olduqca müsbət təsir edir.

Ölkə Prezidenti İlham Əliyevin Goranboya növbəti səfəri rayon sakinlərinin ruh yüksəkliyini daha da artırmış, ilboyu nəzərdə tutulan vəzifələrin daha məsuliyyətlə yerinə yetirilməsinə stimul yaratmışdır.

Təqdirəlayiq haldır ki, Goranboyun inkişafı ilə bağlı rayon rəhbərliyinin həyata keçirdiyi tədbirlər əhali tərəfindən böyük razılıq və dəstəklə qarşılanır. Goranboy şəhərində 28 ədəd çoxmənzilli yaşayış binası vardır. Möhtərəm Prezidentimizin tapşırığına əsasən ötən il bu binalardan 11-i təmir edilmiş, bu il isə 12-si təmir edilir. Goranboy şəhərində 9, Dəliməmmədli şəhərində isə 2 binanın giriş blokları əsaslı təmir edilmiş, fasad hissələrinə suvaq vurulmuş, şəhərin C.Cabbarlı 2, 4, 6, 12 saylı, M.Məhərrəmov küçəsi 15 saylı, Dəliməmmədli şəhəri T.Əkbəri küçəsi 65, 67 saylı binaların dam örtükləri dəyişdirilmiş, müasir tələblərə uyğun quraşdırılmışdır. Həmçinin binaların ətrafında tamet düzülmüş, səliqə-sahman yaradılmışdır. Binaların hamısına pəncərə blokları, metal qapılar quraşdırılmışdır.

Bu günlərdə Qızılhacılı qəsəbəsində yerləşən 2 mərtəbəli 16 mənzilli yaşayış binasının təmirinə başlanmışdır. Həmçinin ayrılmış büdcə vəsaiti hesabına şəhərin S.Civəzadə küçəsində yerləşən çoxmənzilli binaların bloklarına giriş qapıları, pəncərə blokları quraşdırılmışdır. Qalan binaların təmiri ilə bağlı sənədləşmə aparılır.

Şəhər ərazisində və avtomobil yollarının kənarında 10 minədək ağac əkilmişdir.

Rayonun yaşayış məntəqələrində də abadlıq-quruculuq işləri aparılır. Əvvəlki illərdə olduğu kimi, yerli icma və qeyri-hökumət təşkilatlarının maliyyə dəstəyi ilə yerli əhəmiyyətli problemlərin həlli ilə bağlı layihələrin icrası davam etdirilmişdir. AzKİL təşkilatı tərəfindən uzunluğu 12,3 km olan Ağamalıoğlu-Baxçakürd-Dəyirmanlar avtomobil yolu, həmçinin Qaradağlı kəndində 15,2 km, Yəhərçi Qazaxlar kəndində 5,5 km kəndarası yollar yenidən qurulmuş, bu kəndlərdə 6 ədəd dayanacaq quraşdırılmışdır. Hazırda Nadirkənd və Bəşirli kənd qəbiristanlıqlarının ətrafına hasar çəkilir.




Rayonda son illər yol infrastrukturunun yeniləşdirilməsi üçün xeyli işlər görülmüşdür. Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun tikintisi Dövlət Proqramına salınmışdır.

37,75 km uzunluğunda Goranboy-Yuxarı Ağcakənd avtomobil yolunun yenidən tikintisi ilə bağlı cənab Prezidentin müvafiq sərəncamları ilə ayrılmış vəsait hesabına yolun 34 km hissəsinə asfalt-beton örtük salınmışdır. Yolun tikintisinin başa çatdırılması üçün 2,2 milyon manat əlavə vəsait ayrılmış, iş gedir, yaxın vaxtda başa çatdırılacaqdır.

Rayon əhalisinin içməli su təminatı xeyli yaxşılaşdırılmışdır. Rayon mərkəzinə 38,5 km məsafədən içməli su kəməri çəkilmiş, hazırda bu kəmərdən 18 yaşayış məntəqəsinin əhalisi istifadə edir. Bu il isə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin "Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatına dair əlavə tədbirlər haqqında" 17 mart 2017-ci il tarixli Sərəncamına əsasən, Veyisli kəndində və kəndin yaxınlığındakı məcburi köçkün qəsəbəsinə 7 km uzunluğunda içməli su xətti çəkilərək istismara verilmişdir. Abbasqulular kəndinə də içməli su xətti çəkiləcəkdir. Qarasuçu və Bəşirli kəndlərində də içməli su layihələri həyata keçiriləcəkdir. Ümumilikdə isə ilin əvvəlindən rayon üzrə 12 km içməli su xətti çəkilmişdir, kəndlərin qazlaşdırılması başa çatmaq üzrədir.

İlin sonunadək bu kəndlərə təbii qaz veriləcəkdir və rayon üzrə qazlaşma 94 faizə çatacaqdır.

Dəliməmmədli şəhərində və Kürəkçay qəsəbəsində 40 meqavatlıq 110/35/10 yarımstansiyası tikilmişdir. Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə "Azərişıq" ASC tərəfindən 22 yaşayış məntəqəsində 0,4 kv-luq elektrik verilişi xətlərinin SİB kabellə çəkilişi başa çatdırılmışdır.

## KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI ƏSAS HƏDƏF SEÇİLMİŞDİR

Kənd təsərrüfatı sahəsində böyük uğurlar qazanılmışdır. Belə ki, bu il rayonda 5 ton, gələn il isə 10 ton barama istehsalı nəzərdə tutulmuşdur. Ən əsası odur ki, barama saxlayan şəxslər qısa müddət ərzində müəyyən gəlir əldə etmişdilər. Artıq bu sahəyə maraq artmış, gələn mövsümdə barama saxlamaq üçün 500-dən çox vətəndaş müraciət etmişdir. Bu sahənin yem bazasının yaxşılaşdırılması üçün 27 min ting əkilmişdir.

Strateji məhsul olan pambıq istehsalının inkişafı ilə bağlı ölkə Prezidentinin qarşıya qoyduğu vəzifələr rayonda da uğurla həyata keçirilir. Ötən il 2000 hektarda pambıq əkildiyi halda, bu rəqəm bu il 5000 hektara çatdırılmışdır. Sahələrdə kifayət qədər məhsul yetişdirilmişdir.

Gəlirli sahələrdən biri də tütünçülükdür. Rayonun dağətəyi kəndlərində 6 hektarda tütün əkilmişdir. Artıq məhsul yığımı başa çatmaq üzrədir.

Son iki ildə rayonda 5 hektar fındıq bağları salınmışdır. Yeni fındıq bağlarının salınması üçün əlverişli ərazilərdə torpaq sahələri müəyyənləşdirilmiş, növbəti ildə yeni bağlar salınacaqdır.

Möhtərəm Prezidentimizin tapşırığına əsasən Şəmkir maşın kanalının ikinci hissəsinin tikintisində işlər davam etdirilir. Artıq kanaldan 8 yaşayış məntəqəsində əkin sahələrinin suvarılması üçün istifadə olunur. Eyni zamanda bu kanaldan yeni yaradılmış Aqroparka da 13 km məsafədən su kəməri çəkilmişdir. Respublika üzrə yaradılan 33 aqroparkdan biri olan bu müəssisəyə 4695 hektar torpaq sahəsi ayrılmışdır. Burada taxıl, pambıq, texniki bitkilər əkilməsi, meyvə bağlarının salınması, logistika mərkəzinin, emal müəssisələrinin və soyuducu anbarın tikilməsi nəzərdə tutulmuşdur. Aqroparkda infrastrukturun yaradılması istiqamətində xeyli iş görülmüşdür. Onun fəaliyyəti rayonda məhsul istehsalına güclü təkan verməklə yanaşı, xeyli sayda yeni iş yerlərinin yaradılmasına səbəb olacaqdır.

Eyni zamanda suvarma suyu ilə təminatın yaxşılaşdırılması məqsədi ilə möhtərəm Prezidentimizin müvafiq sərəncamına əsasən bu il rayonda 18 ədəd subartezian quyusu qazılmışdır.

## MƏDƏNİYYƏT VƏ TURİZM SAHƏSİ DİQQƏT MƏRKƏZİNDƏDİR

Ecazkar təbiəti olan Heydər Əliyev adına Mədəniyyət və İstirahət parkında müasir memarlıq üslubunda inşa edilmiş 3 mərtəbəli 4000 kv.metr sahəsi olan möhtəşəm Heydər Əliyev Mərkəzinin qarşısında ümummilli lider Heydər Əliyevin əzəmətli abidəsi sakinlərin gündəlik ziyarətgahına çevrilmişdir. Mərkəzin ərazisində müasir yaraşıqlı işıqlandırma sistemi quraşdırılmış, yaşıllıq zolaqların arasında boylanan gül-çiçəklər, dekorativ ağaclar və xaricdən gəlmiş əfsanəvi gül kolları mədəniyyət-istirahət parkına xüsusi gözəllik verir. Goranboy Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və dəstəyi ilə Heydər Əliyev Mərkəzində məktəblilərin vətənpərvərlik, milli-mənəvi dəyərlərin təbliği və asudə vaxtlarının səmərəli təşkili, əlavə biliklərə yiyələnmələri məqsədilə kompüter kursları, rəsm, əl işləri (muncuqlarla) dərnəkləri, ingilis, rus dili kursları da fəaliyyət göstərir. Bu dərnək və kurslar da şagirdlərdə böyük maraq doğurmuşdur.

Heydər Əliyev Mərkəzi rəsmi fəaliyyətə başladığı gündən bu günə kimi mütəmadi olaraq şəhər və kənd məktəblərinin, pedaqoji kollektivlərin , uşaq bağçalarının, idarə və müəssisə təşkilatlarının cədvəl üzrə muzeyə ekspozisiyasını təşkil edir. Eyni zamanda, Böyük Vətən Müharibəsində və Qarabağ müharibəsində həlak olanların xatirəsi həmişə diqqətdə saxlanmışdır, belə ki, yüksək dizaynla, vətənpərvərliyi əks etdirən Abidə Kompleksi gənclərin və məktəblilərin qəhrəmanlıq simvoluna çevrilmiş, mütəmadi qərənfil dəstələri ilə yad edilir. Burada dekorativ ağaclar və fontanlar və abidə önünə qoyulmuş daimi alovlanan məşəl cəlbedici kompozisiya təşkil edir.

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin adına salınmış 4 hektar sahəsi olan istirahət parkını şəhərə gələn qonaqları məftun edir. Parkı əhalinin və şəhərə gələn qonaqların istirahəti üçün 4 ədəd əyləncə yerləri, gözoxşayan füsunkar "Şəlalə" kompleksi hər bir vətəndaşa ruhi qida verir. Burada, 4000 kv.metr sahədə salınmış qazonlar arasına, xaricdən gəlmiş dekorativ ağaclar və gül kolları, qışın oğlan çağında zövqlə əkilmiş gül-çiçək hər bir kəsi ayaq saxlamağa məcbur edir. Xüsusi gecə görüntüsü yaratmaq məqsədilə işıqlandırma sistemi sakinlərin könlünü oxşayır. Olduqca xoşagəlimli, yayda sakinlərə sərinlik yaradan müasir stildə quraşdırılmış fontanlar sakinlərin rahatlığına xidmət edir.

Ölkə Prezidenti cənab İlham Əliyev Goranboya növbəti səfəri zamanı dediyi "Mən inanıram ki, Goranboy rayonu bundan sonra da davamlı inkişaf edəcək" kəlamı bu gün reallığa çevrilmişdir. Məhz bu inkişafın bariz nümunəsidir ki, rayonda turist axını yüksəlmişdir. Turizm üçün əlverişli olan əsrarəngiz təbiəti olan Gülüstan ərazisində 2 beynəlxalq standartlara cavab verən füsunkar turizm-istirahət mərkəzi fəaliyyət göstərir. İlk öncə "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq rayonun zəngin turizm potensialını nümayiş etdirmək məqsədilə Mədəniyyət və Turizm Nazirliyi ilə Avropa Birliyi arasında bağlanmış müqaviləyə əsasən rayonda turizm üçün əlverişli olan ərazilərin xəritəsi hazırlanmış, həmin ərazilərin turizm zonası elan olunması üçün aidiyyəti dövlət qurumlarına təqdim olunmuşdur. Artıq turizm-istirahət mərkəzlərindən minlərlə insanlar dincəlir, xoş təəssüratla ayrılırlar.



Artıq payız-qış mövsümü başlamışdır. Sakinlərin rahatlığı üçün bütün idarə və müəssisələrdə, infrastrukturlarda hazırlıq işləri qənaətbəxşdir.

Eyni zamanda, Mədəniyyət və Turizm Nazirliyinin lisenziyası əsasında müasir tələblərə cavab verən 4 müasir, beynəlxalq standartlara cavab verən yaraşıqlı otel fəaliyyət göstərir ki, şəhərə gələn qonaq və turistlərin xidmətində layiqincə durur.

## TƏHSİL SAHƏSİNDƏ UĞURLAR ÜRƏKAÇANDIR

Goranboy rayonunda da təhsil sahəsində məqsədyönlü tədbirlər və uğurlar özünü qabarıq göstərir. 2016-cı illə müqayisədə ali təhsil müəssisələrinə qəbul 10,62% artmışdır. 500-də yuxarı bal toplayanlar 21%, 600-də yuxarı nəticə göstərənlərdə isə 25% artım olmuşdur. Məzunlardan 1 nəfər Sərhəd Qoşunlarına, 1 nəfər Aviasiya Akademiyasına, 4 nəfər Polis Akademiyasına qəbul olmuşdur. Son üç il ərzində 39 nəfər məzunun Xüsusi təyinatlı məktəblərə qəbul olması məhz rayonumuzda vətənpərvərlik tərbiyəsi istiqamətində aparılan məqsədyönlü işin nəticəsidir. Musayev Sabir 685 balla Polis Akademiyasına, Zeynalova Əsmər 660 balla ADİU, Həsənova Aytac 659 balla BDU, Həsənova Aytac 613 balla ADNSU, Mamedov Firdus 671 balla ADİA, Aslanlı Kürdoğlu 628 balla BDU, Əhmədov İmran 610 balla BDU, Əhmədova Nuranə 605 balla BDU, Həsənova Nəzirə 676 balla BDU, Hacıyev Nəriman 657 balla ATU, Qasımova Səma 605 balla Xəzər Universiteti, Həsənov Rəhman 603 balla Polis Akademiyası, Şahzadəyev Həsən 615 balla ADİU, Həsənəliyeva Fəridə 643 balla ATUya qəbul olmuşlar.

Bu müvəffəqiyyətin başında müəllimlərin gərgin əməyi durur. Bu isə dövlət tərəfindən həmişə qiymətləndirilir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 5 nəfər "Tərəqqi" medalı ilə təltif edilmiş, 4 nəfər Əməkdar müəllim, 2 nəfər "İlin ən yaxşı müəllimi", Təhsil Nazirliyi tərəfindən 3 nəfər "Qabaqcıl təhsil işçisi" adına layiq görülmüşlər, Goranboy Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən isə 13 nəfər Fəxri fərmanlarla təltif olunmuşdur.

Təhsilin maddi-texniki bazasının yaxşılaşdırılması son illər Goranboy rayonunda da uğurla həyata keçirilmişdir. Aprel döyüşlərində zərər çəkmiş məktəblərdən, xüsusən də rayonun Tap kənd tam orta məktəbi Azəraqrartikinti Səhmdar Cəmiyyəti tərəfindən əsaslı təmir olunmuş və 108 yerlik əlavə korpus tikilərək müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Rayonun girəcəyində təhsil şöbəsinin qarşısındakı yol dairəsində son dərəcədə diqqəti cəlb edən daimi işləyən xüsusi dizaynla işlənmiş saat qülləsi, zövqlə əkilmiş gül-çiçək, yaraşıqlı işıqlandırma sistemi rayona gələn qonaqların könlünü oxşayır. Yeni müasir standartlara uyğun, sərnişinlərin rahatlığı üçün yüksək dizaynla tikilmiş avtovağzal əhaliyə yetərincə xidmət edir. Ümumiyyətlə, rayonda regionların sosial-iqtisadi inkişafına yönəlmiş Dövlət proqramları uğurla icra edilir. İqtisadi sahədə qazanılan nailiyyətlər əhalinin sosial vəziyyətinin yüksəlməsinə, firavanlığına sərf olunur. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maariflendirici tur-aksiyalar çərçivəsində ölkəmizin müxtəlif guşələrindən rayona gələn məktəblilər Qədim Oğuz yurdunun çox zəngin və əhəmiyyətli tarixi-memarlıq abidələri və füsunkar gözəlliyi ilə hamını valeh edən Gülüstan ərazilərində olmuş, uzun zaman xatirələrindən silinməyəcəyini bildirmişlər. Eyni zamanda, tur- aksiya çərçivəsində rayonun 40 nəfər fəal şagirdi Quba, Qusar rayonlarında və Xaçmaz şəhərində olmuşdur. Tur-aksiya çərçivəsində məktəblilər ekskursiyaya Qubada dağ yəhudilərinin yığcam yaşadığı Qırmızı Qəsəbədən başlayıblar. Sonra onlar Cümə məscidinə gəliblər. 1802-ci ildə nəfis memarlıq üslubunda olan məscid onlarda böyük maraq doğurmuşdur. Sonra məktəblilər şəhərdə fəaliyyət göstərən "Qədim Quba" xalçaçılıq müəssisəsində xalça toxunması prosesini müşahidə ediblər. Quba Soyqırımı Memorial Kompleksini və ərazidəki kütləvi məzarlığı ziyarət edən tur-aksiya iştirakçılarına ermənilərin ötən əsrin əvvəllərində törətdikləri soyqırımı haqqında ətraflı məlumat verilmişdir. Məktəblilər, eyni zamanda, Quba rayonu ərazisində, Xınalıq yolu üzərində yerləşən dağ şəlaləsinə baş çəkiblər.

Sonra onlar "Rixos Quba Azerbaijan" otel kompleksi və burada yerləşən Azərbaycan Milli Qolf Klubu ilə tanış olublar. Qusardakı Dövlət Bayrağı Meydanında böyük qələbəlik yaşanmışdır. Ətrafdakı, bütün zövqlə qurulmuş kompozisiyalar məktəblilərdə olduqca yüksək əhval-ruhiyyə və xoş təəssürat yaratmışdır. Sonra turistlər məkanı olan Xaçmaz rayonunun görməli yerlərinə səyahət edib, doğma Azərbaycan təbiətinə heyran qalmışlar.

Bəli, bu gün Qədim Oğuz yurdu olan Goranboy tərəqqi yolundadır. Elə bir davamlı inkişafdadır ki, rayonun təkcə siması deyil, sakinlərin həyat tərzi, sosial vəziyyəti xeyli yüksəlmişdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**





